**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AZƏRBAYCAN VƏ POLŞA RESPUBLİKALARININ İQTİSADİ ƏLAQƏLƏRİNİN PERSPEKTİV İNKİŞAF İSTİQAMƏTLƏRİ

İxtisas: 5310.01- Dünya iqtisadiyyatı

Elm sahəsi: 53 - İqtisad elmləri

İddiaçı**:** **Toğrul Mahmud oğlu Allahmanlı**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**BAKI – 2023**

Dissertasiya işi Odlar Yurdu Universitetinin "İqtisadiyyat və iqtisadi münasibətlər" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmləri doktoru, professor
**Amil Məmmədəli oğlu Məhərrəmov**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, professor
**Hacıağa Baxış oğlu Rüstəmbəyov**

iqtisad üzrə fəlsəfə doktoru, dosent
**Təbriz Abdulla oğlu Yadigarov**

iqtisad üzrə fəlsəfə doktoru
**Elnur Kərim oğlu Əlizadə**

Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət İqtisad Universitetinin İqtisadi Araşdırmalar Elmi-Tədqiqat İnstitutu nəzdində fəaliyyət göstərən FD 1.11 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: ____________________ imza

Əməkdar elm xadimi
iqtisad elmləri doktoru, professor
**Yadulla Həmdulla oğlu Həsənli**

Dissertasiya şurasının elmi katibi: ______________ imza

iqtisad elmləri namizədi
**Rəşad Aktiv oğlu Hüseynov**

Elmi seminarın sədri: ____________________ imza

iqtisad elmlər doktoru, dosent
**Müşfiq Yelmar oğlu Quliyev**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Dünya iqtisadi sistemində gedən proseslər, onun ümumi məzmun və mahiyyəti, xarici ticarət və beynəlxalq resursların mübadiləsinin genişləndirilməsi sahəsində atılan addımlar dünya evinin iqtisadi siyasətindəki ümumi mənzərəni ortaya qoyur. Respublikamızın strateji hədəfləri baxımından bu işlərin məqsədli və uğurlu həyata keçirilməsi ən vacib məsələlərdəndir. Çünki bunun uğurluluğunda ökənin  iqtisadi sferada tutacağı yer və oynayacağı rol müəyyənləşir. Azərbaycan özünün müstəqilliyini əldə etmiş və siyasi, iqtisadi müstəvidə öz mövqeyini ortaya qoymuşdur. Dünyanın müxtəlif ölkələri ilə aparılan danışıqlar, sistemli və məqsədli görüşlər ikitərəfli əlaqələrin yaranmasına və perspektivinə hesablanmışdır. Əmtəə, kapital və işçi qüvvəsində olan aparıcılıq, onun yeni axın və istiqamətlərinin perspektivini hesablamaq və uğurlu nəticələr çıxarmaq dövlətin iqtisadi siyasətinin məzmununu aydınlaşdırır.

Ölkələrarası iqtisadi əlaqələrin daha fəal keyfiyyət müstəvisində qurulması qarşılıqlı yararlanmanı, proseslərin davamlılıq mənzərəsini müəyyənləşdirir. Azərbaycan Respublikası bu baxımdan xarici ölkələrlə (yaxın və uzaq olmasından asılı olmayaraq) qarşılıqlı anlaşma və tərəfdaşlığa hesablanmış ciddi bir strategiya ilə təmsil olunur. Polşa Respublikası ilə aparılan iqtisadi tərəfdaşlıq da məhz bu sıradadır. Məlum olduğu kimi, Azərbaycan Respublikasının Polşa ilə hələ XIX əsrdən bu yana olan iqtisadi, siyasi və mədəni bağlantıları vardır. Onların yeni şəraitdə, sovetlər imperiyasının dağılmasından sonra inkişafı və strategiyasının müəyyənləşdirilməsi ən ümdə məsələlərdən idi.

Milli iqtisadiyyatın xarici iqtisadi əlaqələrlə gücləndirilməsi, kapital axınının təminatı və davamlılığı, investisiya qoyuluşunun təminatı və s. kimi məsələlər ölkənin iqtisadi imkanlılığının artımını şərtləndirir. İqtisadi artımın müəyyən modelləri (məsələn, Xarrod-Domar modeli, Solou modeli və s) ölkələrin iqtisadi inkişafını öyrənməyə hesablanmışdır. Xarici investisiya axını yeni texnologiyaların, idarəetmə metodlarının, istehsalın təşkilində yeni biliklərin təbiiliyini də zəruri edir. Azərbaycan bu proseslərin uğurluluğunda ciddi  strategiya ilə təmsil olunur; onun qarşılıqlı

əməkdaşlıq və uğurluluq əmsalı maksimum səviyyədə reallığa, ölkənin iqtisadi dayanıqlığının artan xətdə gedişinə hesablanır.

Polşa Respublikası ilə Azərbaycan Respublikasının iqtisadi inkişafının perspektivlərinin elmi-nəzəri müstəvidə araşdırılması bu iki ölkənin iqtisadi inkişafının ümumi mənzərəsini, mahiyyətini, genetik sistemini, perspektivə hesablanan dayanıqlı mənzərəsini aydınlaşdırmağa əsas verir. İki ölkə arasında iqtisadi əməkdaşlıq sahəsində imzalanmış sənədlər və bu işlərin həyata keçirilməsi yolları sonrakı prosesdə digər məsələləri, qarşılıqlı iqtisadi yararlanmaları, beyin kapitalını, investisiyanın digər alternativlərinin tapılmasını da əsasa çevirir. Milli iqtisadiyyatın rəqabət qabiliyyətinin təminatı qloballaşma və regionlaşma proseslərinin düzgün aparılmasındadır. İqtisadiyyatın bütün tərəfləri ilə açıqlığı dünya bazarında, eləcə də onun bir hissəsi olan Polşa ilə iqtisadi münasibətlər səviyyəsində innovasiyaları, insan kapitalını bir problem olaraq təhlil etməyi aktuallaşdırır. Bütün deyilənlər kontekstində Azərbaycan və Polşa respublikalarının iqtisadi əlaqələrinin ümumi aspektlərinin işlənməsi aktuallıq kəsb edir.

Milli iqtisadi sistemlərin rəqabət qabiliyyətinin elmi-nəzəri sisteminin təhlili müstəvisində lazımı qədər araşdırmalar aparılmışdır. Belə bir problemin geniş şəkildə tədqiqinə həm xarici, həm də Azərbaycan elmi-nəzəri fikrində kifayət qədər diqqət yetirilmişdir. Z.Ə.Səmədzadə A.K.Ələsgərov, A.A.Şəkərəliyev, F.Ə.Qəmbərov, Ç.M.Abbasov, C.H.Kərimov, D.Ə.Vəliyev, C.Ə.Gənciyev, Ş.H.Hacıyev, İ.A.Kərimli, M.Y.Quliyev və başqaları fundamental tədqiqatları ilə Azərbaycanın xarici iqtisadi əlaqələrinin ümumi elmi-nəzəri bazasını yaratmışlar. Polşa iqtisadiyyatının problemlərini təhlil edən Ben Slay, Dominick Salvatore, Raymond Taras, Frances Millard, Leijonhufvud Axel və onlarla başqaları ciddi tədqiqatları ilə Avropa elmi sferasında tanınmışlar. Ümumiyyətlə, xarici iqtisadi əlaqələrin nəzəri-metodoloji əsasları A.Smidt, D.Rikardo, B.Jancar-Vebster, B.Bortolotti, B.Ebbinghaus, J.Toporowski və başqalarının tədqiqatlarında kifayət qədər təfərrüatlı şəkildə həllini tapmışdır.

Azərbaycanda ayrı-ayrı xarici ölkələrlə, iqtisadi birliklərlə iqtisadi əlaqələrinin qurulması və öyrənilməsi sahəsində ciddi elmi baza formalaşmışdır. Son illərdə bu istiqamətdə araşdırmaların

aparılmasına xüsusi diqqət yetirilməsi, elmi-praktik konfransların keçirilməsi, müvafiq prioritetlərin müəyyənləşdirilməsi məqsədilə müzakirələrin aparılması alternativ variantların və daha uğurlu istiqamətlərin müəyyənləşməsi baxımından görülən işlər və s. buna nümunədir. Bütün bunlar Azərbaycan və Polşa iqtisadiyyatının ayrı-ayrı problemlər üzrə təhlilini zəruriləşdirir və tipoloji müstəvidə araşdırmaların aparılmasını gərəkli edir.

**Tədqiqatın obyekti və predmeti:** Azərbaycan və Polşa Respublikalarının iqtisadi əlaqələrinin mövcud vəziyyəti tədqiqatın obyektini təşkil edir. Tədqiqatın predmetində isə Azərbaycanın Polşa ilə xarici iqtisadi əlaqələrinin təşkili, idarə olunması və inkişafının başlıca istiqamətləri dayanır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyada əsas məqsəd Azərbaycan və Polşa Respublikalarının iqtisadi əlaqələrinin mövcud vəziyyətini bir bütöv olaraq təhlilə cəlb etmək, onun inkişaf istiqamətini, uğurluluq imkanlarını, yararlanmanın səmərəlilik dərəcəsini işləmək, təklif və tövsiyələr səviyyəsində mahiyyəti aydınlaşdırmaqdır.

Nəzərdə tutulan məqsədin həyata keçirilməsi üçün aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

-Azərbaycan və xarici ölkə alimlərinin iqtisadi əlaqələrin perspektiv istiqamətlərinin müəyyənləşməsinə dair nəzəri mülahizələrinə əsaslanmaqla məsələnin mahiyyətinə aydınlıq gətirmək;

-iki ölkənin qarşılıqlı iqtisadi əlaqələrinin perspektivlərini müəyyənləşdirmək;

- Azərbaycan və Polşa Respublikaları arasında əlaqələrin Grubel-Lloyd, Balassa indeksləri ilə hesablanması;

-iqtisadiyyatın rəqabətlik qabiliyyətinin artırılmasında beynəlxalq təcrübənin ümumi əsaslarından yararlanmaq;

-dayanıqlı rəqabət müstəvisində innovasiyaların gücləndirilməsini nəzərə alınmaqla, ona olan ehtiyacların ödənilməsi təminatını müəyyənləşdirmək;

-iki ölkə arasında iqtisadi əməkdaşlığın prioritet tərəfləri müəyyənləşdirmək;

-iqtisadi münasibətlərin mövcud vəziyyətini statistik məlumatlar əsasında təhlil edib əlavə imkanları aşkarlamaq;

-Azərbaycan və Polşa Respublikalarının idxal-ixrac əməliyyat-larının iqtisadi və sosial sahələrdəki müştərək fəaliyyətini sistemli şəkildə təhlil etmək;

-iqtisadi-ticari əlaqələrin mexanizmlərinin təkmilləşdirilməsi, ikitərəfli əməkdaşlığın genişləndirilməsi və davamlılığı baxımından təklif və tövsiyələrin verilməsi və s.

**Tədqiqat metodları.** Tədqiqat prosesində əsasən iqtisadi-riyazi modelləşdirmə, deduksiya, analiz, məntiqi ümumiləşdirmə və müqayisəli təhlil metodlarından istifadə olunmuşdur. Beynəlxalq iqtisadi münasibətlər baxımından ikitərəfli əlaqələrin araşdırılmasında statistik təhlillər indekslər tətbiq etmək metodu ilə hesablanmışdır.

**Müdafiəyə çıxarılan əsas müddəalar:** "Azərbaycan və Polşa respublikalarının iqtisadi əlaqələrinin perspektiv inkişaf istiqamətləri" mövzusu bu günə qədər sistemli araşdırma probleminə çevrilmədiyi əsas götürülərək aşağıdakı müddəalar müdafiəyə çıxarılır:

-Azərbaycan və Polşa Respublikalarının qarşılıqlı iqtisadi əlaqələri iki ölkə səviyyəsində ciddi perspektivləri faktlaşdırır;

-xarici iqtisadi fəaliyyətin təşkili və idarə olunmasının ümumi problemləri kontekstində fundamental təsəvvür formalaşdırır;

-milli iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması Azərbaycan və Polşa timsalında sahəvi iqtisadiyyatın inkişafına zəmin olur;

-yeni texnologiyaların idxalı iqtisadi təhlükəsizlik, ixraca nəzarət baxımından birgə fəaliyyəti zəruriləşdirir;

-iki ölkənin iqtisadi əlaqələrinin gücləndirilməsi ixracın və idxalın perspektivləri, rəqabət qabiliyyəti üçün əlavə imkanlar yaradır;

-xarici iqtisadi əlaqələrin gücləndirilməsi kontekstində Azərbaycan və Polşa Respublikalarının iqtisadi perspektivləri Mərkəzi Avropa və Xəzəryanı dövlətlər səviyyəsində qarşılıqlı faydalanmalara əsas olur;

-dayanıqlı rəqabət müstəvisində innovasiyaların gücləndirilməsi ölkələrin ehtiyaclarının ödənilməsini asanlaşdırır;

-Azərbaycan və Polşa iqtisadi münasibətlərinin mövcud vəziyyətinin statistik məlumatlar əsasında təhlili nəticə və perspektivləri aydınlaşdırır;

-iqtisadi-ticari əlaqələrin mexanizmlərinin təkmilləşdirilməsi, ikitərəfli əməkdaşlığın genişləndirilməsi və davamlılığı digər səahələr üçün də prioritet funksiyasını yerinə yetirir və s.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat ciddi elmi qənaətlərin ortaya çıxması ilə səciyyələnir ki, bunlar da aşağıdakılardır:

-Azərbaycan və Polşa Respublikalarının perspektiv inkişaf istiqamətləri ilk dəfə bir bütöv olaraq təhlil probleminə çevrilmişdir;

-xarici iqtisadi fəaliyyətin təşkili və idarə olunmasının nəzəri əsasları kontekstində iki ölkənin iqtisadiyyatının dinamik mənzərəsi haqqında dolğun təsəvvür formalaşmışdır;

-xarici iqtisadi əlaqələrin gücləndirilməsi şəraitində ixracın və idxalın perspektivləri və rəqabət qabiliyyətli inkişafın istiqamətləri müəyyənləşdirilmişdir;

-yeni texnologiyaların idxalı prosesində Azərbaycanın iqtisadi təhlükəsizliyinin, ixraca nəzarətin problemləri aydınlaşdırılmışdır;

-milli iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılmasının əsas prinsip və mexanizmləri, şərtləri aşkarlanmışdır;

-dayanıqlı rəqabətin yaradılması kontekstində innovasiya komponentlərinin gücləndirilməsi şərtləri müəyyənləşdirilmişdir;

-xarici iqtisadi əlaqələrin gücləndirilməsi kontekstində Azərbaycan və Polşa Respublikalarının iqtisadi perspektivləri timsalında bütöv bir nəzəri baza yaradılmışdır;

- iki ölkə arasında əlaqələrin Grubel-Llyod indeksi tətbiq etməklə hesablanması və s.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işi elmi-nəzəri əhəmiyəti ilə fundamental təsəvvür formalaşdırır. Problemin ortaya qoyduğu nəzəri konsepsiya ayrı-ayrı təhlil-araşdırmalar üçün əsaslı mənbə rolunu oynaya bilər.

Tədqiqat zamanı əldə edilmiş nəticələrdən iqtisadi partnyorluq imkanlarının müəyyənləşməsi və ondan yararlanmaq istiqamətində istifadə etmək olar. Ölkənin rəqabət qabiliyyətinin artırılması üçün idxal, ixrac nəzarəti, yeni texnologiyaların yayılması, iqtisadi təhlükəsizliyin qorunuşu və s. kimi məsələlərdə mənbə kimi

yararlanmaq olar. İqtisadi əlaqələrin perspektivləri haqqında irəli sürülən təkliflər istiqamətləri müəyyənləşdirmiş, idxal ixraca, müştərək müəssisələrin yaradılmasına və iki ölkə arasında iqtisadi əlaqələrin güclənməsinə praktik baxımdan kömək edə bilər. Tədqiqat işi qanunvericilik aktlarının və inkişaf proqramlarının hazırlanması baxımından da praktik əhəmiyyətə malikdir. Dissertasiya işindən "Dünya iqtisadiyyatı", "İqtisadi nəzəriyyə" fənlərinin, eləcə də xüsusi kursların tədrisində mənbə kimi yararlanmaq olar.

**Aprobasiyası və tətbiqi.** Araşdırmanın məzmunu və əldə edilmiş nəticələri respublika və beynəlxalq səviyyəli elmi konfranslardakı çıxışlarda, nüfuzlu elmi jurnallarda əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Odlar Yurdu Universitetinin "İqtisadiyyat və iqtisadi münasibətlər" kafedrasında hazırlanmışdır.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarət olan tədqiqatın həcmi 148 səhifə olmaqla yanaşı cədvəllər, qrafiklər, şəkillər və ədəbiyyat siyahısı istisna olmaqla 240806 işarədən (Giriş 10425 işarə; I fəsil 82782 işarə, II fəsil 71700 işarə, III fəsil 67841 işarə; Nəticə 8058 işarə) ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**“Giriş”**də mövzunun aktuallığı, məqsəd və vəzifəsi, işlənmə dərəcəsi, metodoloji əsası, elmi yeniliyi əsaslandırılır, nəzəri və praktik əhəmiyyəti, aprobasiyası və s. açıqlanır.

**“Azərbaycan və Polşa respublikalarının iqtisadi əlaqələrinin inkişaf xüsusiyyətləri”** adlanan birinci fəsildə problem üç paraqrafda həllini tapır. İlk olaraq problemin **“Beynəlxalq iqtisadi əlaqələrin zəruriliyi, xüsusiyyətləri və nəzəri əsasları”** məsələsinə diqqət yetirilir. Məlum olduğu kimi, dünya iqtisadiyyatının müasir mənzərəsi qloballaşmanı, dinamik beynəlxalq rəqabəti, hər bir ölkənin beynəlxalq əmək bölgüsündə yerini və onun fəallıq dərəcəsini zəruri edir; burada əlbəttə konkret sahələr üzrə rəqabət imkanları, ölkənin inkişafına təsir gücü, sosial, iqtisadi, texnoloji, ekoloji, mədəni və s. sahələr üzrə işlərin gedişinin təşkili bir əsas kimi önəm daşıyır. Azərbaycanın müstəqilliyindən sonra ölkədə baş verən yeniləşmə, kəmiyyət və keyfiyyət dəyişmələrinin meyar və prinsipləri məhz ciddi elmi-nəzəri bazaya əsaslanır.

Ölkənin iqtisadi artımının uğurluluq dərəcəsini, inkişaf tendensiyasını bir istiqamətdə xarici iqtisadi fəaliyyət təşkil edir və bu da forma rəngarəngliyi, iştirakçı sayının dinamikliyi ilə müşahidə olunur. Məsələn, əgər Azərbaycan 2000-ci ildə dünyanın 122 ölkəsi ilə xarici iqtisadi əlaqələr qurmuşsa, bu göstərici artaraq 2012-ci ildə 156-ya çatmışdır. Sonrakı dövrlərdə də bu dinamika qorunmuş, artıq ikitərəfli və çoxtərəfli iqtisadi əməkdaşlıq müstəvisində ciddi uğurlar əldə edilmişdir. Beynəlxalq iqtisadi münasibətlərin meyar və prinsipləri ciddi elmi-nəzəri qanunauyğunluqlara, tarixi təcrübəyə, klassik siyasi iqtisad məktəbinin görkəmli nümayəndələrinin dediklərinə əsaslanır. Klassiklərin, neoklassiklərin, monetaristlərin, institusional-sosioliji məktəbin yanaşmaları, onların baxışlarındakı fərqlilik beynəlxalq iqtisadi münasibətlərin inkişaf tendensiyasını aydınlaşdırmağa, alternativlərin ortaya çıxmasına şərait yaradır.

Beynəlxalq iqtisadi münasibətlər ayrı-ayrı ölkələrin iqtisadiyyatının qarşılıqlı əlaqə və asılılığı üzərində formalaşır. “İnnovasiyaların tətbiqi vasitəsilə elmin inkişaf səviyyəsi və onun texnoloji tətbiqi dərəcəsi, istehsal prosesinin ictimai kombinasiyası,

istehsal vasitələrinin qədəri və səmərəliliyi təbii şəraitdə müəyyən olunur”[1]. Beynəlxalq iqtisadi münasibətlərin nəzəri prinsipləri özlüyündə iqtisadi strategiyanın məzmununu, qarşıya qoyulan məqsədin davamlılığını, perspektivasını hədəfləyir.

Azərbaycan və Polşa Respublikaları kontekstində aparılan tipoloji təhlillər, eləcə də bu istiqamətdə irəli sürülən nəzəri mülahizələr istehsal vasitələri, ticarət şəraitinin uyğunluğu, əmtələrin istehsalı üzrə ixtisaslaşmanı bir tərəf kimi nəzərə almağı zəruri edir. İstehsalçılar, satıcılar və alıcılar arasında gedən dalğavari proses bütünlükdə rəqabətlə, uğurluluq əmsalının dərəcəsi ilə ölçülür. A.Smit vurğulayırdı ki, “istehlak bütün istehsal prosesinin yeganə nəticəsi və məqsədidir”[2].

Birinci fəslin **“Beynəlxalq iqtisadi əlaqələrdə geoiqtisadi amillərin əhəmiyyəti”** adlanan ikinci paraqrafında Azərbaycan və Polşa Respublikalarının iqtisadi münasibətləri müstəvisində geoiqtisadi amillər məsələsinə diqqət yetirilir. Məlum olduğu kimi, geoiqtisadiyyat dövlətin konkret mühit və şərait daxilində iqtisadi münasibətlərini, fəaliyyət sistemini tədqiq etməklə beynəlxalq arenada strategiya və taktikasını formalaşdırmaq kimi ciddi bazanı özündə ehtiva edir. Geoiqtisadi məkan, dünyanın geoiqtisadi atlası, mütəhərrik iqtisadi sərhədlər, dünya gəliri, strateji manevr və strateji effektlər, geoiqtisadi texnologiyalar, etnoiqtisadi sistemlər, geoiqtisadi təzminat, geoiqtisadi təhlükəsizlik və s. cəmlənir.

Geoiqtisadi amillər iqtisadi sferada beynəlmiləlləşmənin yeni mexanizmlərinin yaranması gərəkliyini ortaya qoyur. Bütün olanlar yeni iqtisadi sərhədlərlə, yəni əlavələrin, alternativlərin ortaya çıxması ilə şərtlənir. Məsələn, transmilli dünya gücləri və yerli dövlətlər geoqitisadi münasibətlər səviyyəsində Cənubi Qafqazda və Xəzər hövzəsində ciddi fəaliyyət proqramı ilə təmsil olunurlar.

Ümumiyyətlə, “beynəlxalq iqtisadi miqyasda əlaqələrin inkişafı iki əsas şərtlə əsaslanır: birincisi, xarici iqtisadi əlaqələrin obyektiv

---

[1] Muradov V.A. Regionların inkişafında Qərbi Avropa innovasiya inkişaf modelinin tətbiqi imkanları. Avtoreferat, (iqtisad üzrə fəlsəfə doktoru. -Bakı: - BDU, 2016, - s. 7

[2] Butler Eamon. Adam Smit – iqtisadiyyatın əlifbası. Bakı: Azad düşüncələr, 2008, s. 119

zəruriliyinə; ikincisi isə həmin əlaqələrin qarşılıqlı faydalı olmasına”[3]. Dövlətlər arasında əlaqələrin artma tendensiyası geoiqtisadi amillərin əhəmiyyətliyi üzərində qurulur. Azərbaycan və Polşa Respublikalarının iqtisadi əlaqələrinin bu sistem üzərində təhlili ciddi bir iqtisadi fakturanı ortaya qoyur. Azərbaycanın zəngin enerji resursları, onun mənimsənilməsi, birgə işlənmə və yararlanma mexanizmi, ixrac marşrutları, istehsal və istehlak problemləri, qeyri-neft sahələrinə olan marağın güclənməsi beynəlxalq iqtisadi əlaqələrdə geoiqtisadi amillərin əhəmiyyətliliyi müstəvisində reallaşır. Son olaraq beynəlxaq iqtisadi əlaqələrin əhəmiyyətliliyi kontekstində bütöv bir modeli ortaya qoyur.

**“Azərbaycan və Polşa Respublikalarının iqtisadiyyatının inkişaf xüsusiyyətləri, onun sahə quruluşu və xarici iqtisadi əlaqələri”** birinci fəslin üçüncü paraqrafında problem olaraq qoyulub həllini tapır. Azərbaycan və Polşa Respublikalarının iqtisadiyyatının sahə quruluşunun, inkişaf xüsusiyyətlərinin, xarici əlaqələrinin tipoloji baxımdan təhlili özlüyündə geniş fakturaya, qarşılıqlı iqtisadi bağlantıların yeni istiqamətlərinin yaranmasına və perspektivliyinə diqqəti yönəldir. Qloballaşmanın mahiyyətində duran əsas məsələ dünya evinin bütün müstəvidə vahid məcraya istiqamətlənməsi, sosial, iqtisadi, mədəni, siyasi sferada olanların ortaqlıq nöqtələrinin tapılmasıdır.

Polşa Respublikası Mərkəzi Avropada olub bir sıra sahələrin üstünlükləri, məsələn, xidmət sahəsi, daxili bazarlarının imkanlığı, iqtisadi münasibətlərin əhəmiyyətliliyi ilə seçilir. Burada respublikanın çoğrafi şəraitin uğurluluq əmsalı da mühüm önəm daşıyır. Qərbdə Almaniya, cənubda Çex Respublikası və Slovakiya, şərqdə Ukrayna və Belarus, şimalda Baltik dənizi, Litva və Rusiya ilə həmsərhəd olması bazar keçidlərinə, onun idxal, ixrac münasibətlərinin əhatəliliyinə əsas verir. Ölkənin bundan əlavə Danimarka və İsveçlə dəniz sərhədləri vardır ki, bu da xarici iqtisadi

---

[3] Eyvazov A. Azərbaycan və Ukrayna respublikaları arasında iqtisadi əlaqələrin təkmilləşdirilməsi istiqamətləri. Avtoreferat (iqtisad elmləri namizədi) / A.Eyvazov. - Bakı, İqtisad İnstitutu, -2008, -s. 8

münasibətlərin qurulmasının münbitliliyini şərtləndirir. Polşanın ərazisi 312.683 km², əhalisi 37 milyondan çoxdur.

Azərbaycanın ümumi coğrafi şəraitinə, yerləşmə arealının xüsusiyyətlərinə diqqət yetirdikdə uğurluluq baxımından ciddi bir mənzərə yaranır. Belə ki, Azərbaycan Respublikası Cənubi Qafqaz, Xəzər dənizi hövzəsində yerləşən dövlət kimi bərpa olunmayan resursların zənginliyi ilə seçilir. İqtisadi imkanlılığı, geoiqtisadi şərait üçün əlverişli rolu, tranzit ölkə kimi Şərq, Qərb, Şimal, Cənub üçün böyük marağa səbəb olması ilə diqqət önünə gəlir. Şimaldan Rusiya, Gürcüstan, qərbdən Ermənistan, Türkiyə və cənubdan İran ilə həmsərhəd olması geoiqtisadi proseslərin təşkilində uğurlu perspektivlər vəd edir.

Polşa sənayesi əsaslı müxtəlifliklərlə səciyyələnir. Gəmi istehsalı, meşə sahələri, tekstil, kimya, metal sənayesi, alüminium, neft məhsulları başlıca istiqamətlər kimi uğurlu inkişafla xarakterizə olunur. Dada çox isə mədənçilik və mədən sənayesi ilə xarici bazarda təmsil olunur. Aydınlıq üçün Polşada istehsal olunan malların bir hissəsinə diqqət yetirək; bunlar elektronika, vertolyot və təyyarə (PZL Swidnik, PZL Mielec), gəmi (Gdansk Shipyard, Szczecin Shipyard, Gdynia Polşa Dəniz Tersanesi), avtobus və tramvay (Solaris, Solbus), hərbi avadanlıqlar (FB "Lucznik" Radom, Bumar-Labedy SA), kimyəvi məhsullar, dərmanlar (Polpharma, Polfa), şüşə dulusçuluq (Boleslawiec), ərzaq (Tymbark, Hortex, E.Wedel), geyim (LLP) və s. Polşa dünyanın ən böyük mis, gümüş, kömür istehsalçılarındandır. Bütün bunlar geoiqtisadi sferada qarşılıqlı iqtisadi münasibətlərin qurulması üçün ciddi imkanlar yaradır.

Dissertasiyanın **"Azərbaycan Respublikasının Polşa Respublikası ilə iqtisadi əlaqələrinin xarakterik xüsusiyyətləri"** adlanan ikinci fəslində problem üç paraqrafda həllini tapır. "**Azərbaycan və Polşa iqtisadi əməkdaşlığının əsas istiqamətləri"** paraqrafında bu əməkdaşlığın, siyasi, mədəni, iqtisadi sahədə artan tempinin və tarixi köklərinin dinamik mənzərəsi təhlil olunur. İqtisadi sferada bu əməkdaşlığın yeni mərhələsinin daha əsaslı və fundamental xarakterliliyi, möhkəm baza üzərində nizamlandığı nəzərə çarpır. Çünki burada tarixi bağlantılardan əlavə, ölkələrin qarşılıqlı faydalanma, iqtisadi problemlərin birgə həlli əsas meyar kimi

götürülür. Polşa iqtisadçı alimi Jan Toporovski "İqtisadiyyatın Polşa töhfəsi" adlı məqaləsində vurğulayır ki, "iqtisadiyyatda milli məktəb kimi bir şey yoxdur. Polşanın peşəkar iqtisadçılarının ideyaları dünyanın əksər ölkələrinin iqtisadçılarının fikirləri kimi əsasən törəmədir; yəni keçmişdə olanların bu və ya başqa formada təzahürü və genişləndirilməsidir"[4].

İki ölkə arasında diplomatik əlaqələrin qurulmasından sonra (21 fevral 1992-ci il) Polşanın Azərbaycanda səfirliyinin (2001), Azərbaycanın Polşada səfirliyinin təsis edilməsi (2004) iqtisadi müstəvidə canlanma, böyük layihələrin həyata keçirilməsi üçün əsas oldu. Kənd təsərrüfatı, turizm, hava nəqliyyatı, yükdaşımalar, Azərbaycan sənaye parklarında Polşa şirkətlərinin iştirakı və s. məhz həmin anlaşmanın faktı kimi daha geniş mahiyyət kəsb etməkdədir. Azərbaycan Respublikasının prezidentin Polşaya rəsmi səfəri (26-28 avqust 1997-ci il) ikitərəfli münasibətlərin inkişaf etdirilməsinmə hesablanmışdı. Dostluq və əməkdaşlıq haqqında bəyannamə, ikiqat vergiyə cəlb olunmaya yol verilməməsi, gəlir və əmlak vergilərinin ödənilməsindən yayınma hallarının qarşısının alınması, mədəni və elmi əməkdaşlıq, investisiyaların qarşılıqlı təşviqi və qorunması, mülkü hava daşımaları, turizm sahəsində əməkdaşlıq və s. məsələlər özünə yer almışdır.

Azərbaycan prezidentinin Polşaya sonrakı səfərləri (5 mart 2005-cü il, 26 fevral 2008-ci il, 26-28 iyun 2017-ci il), eləcə də Polşa prezidentinin Azərbaycana səfərləri (30 mart 2007-ci il, 2 iyun 2009-cu il, 30-31 may 2019-cu il) və yaxud da GUAM-ın zirvə görüşlərində (18 iyun 2007-ci il Bakıda, 1 iyul 2008-ci il Batumi) və s. görüşlər ikitərəfli əməkdaşlığın yaxşılaşdırılmasına hesablanmışdır. "Azərbaycan Respublikası və Polşa Respublikası Prezidentlərinin Məşvərət Komitəsinin Nizamnaməsi", "Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə Polşanın "Grupa Lotos" Səhmdar Cəmiyyəti arasında niyyət haqqında Protokol" (2 iyul 2009-cu il), əməkdaşlıq cədvəlləri və s. hamısı bir istiqamətdə iqtisadi əlaqələrin güclənməsini

[4] Janek Toporowski. İqtisadiyyatda Polşa töhfəsi. www.res.org.uk/view/art4Apr14-Features.html.

faktlaşdırmışdır. "Azərbaycan Respublikası ilə Polşa Respublikası arasında Tərəfdaşlıq və İqtisadi Əməkdaşlığa dair Yol Xəritəsi haqqında Birgə Bəyannamə" (26-28 iyun 2009-cu il), eləcə də beş bəndlik sənəd iki ölkə arasında olan iqtisadi əlaqələrin güclənməsinin bariz nümunəsidir.

Polşanın Baltik dənizi Dövlətləri sistemində mövcudluğu və Mərkəzi Avropada olması ilə Azərbaycanın coğrafi baxımdan yerləşdiyi ərazi, Xəzər hövzəsi dövlətlər qrupunda mövcudluğu bütün müstəvilərdə, eləcə də iqtisadi münasibətlərin qurulmasında vacib bir fiqur kimi əhəmiyyətli yer tutduğunu düşünməyə əsas verir.

Əkinçilik məhsulları sırasında kartof, tütün, kətan, çovdar, arpa, buğda və yulaf daha çox üstünlük təşkil edir və ölkənin ticari əlaqələrində, ixrac bazarında önəm daşıyır. Heyvandarlıq (daha çox mal və qoyun), balıqçılıq ölkənin iqtisadiyyatında xüsusi çəkiyə malikdir. Azərbaycan da Polşa ilə həyata keçirdiyi iqtisadi əməkdaşlıq münasibətlərində bir Asiya ölkəsi olaraq zəngin ehtiyatları, coğrafi şəraitinin üstünlükləri ilə mühüm əhəmiyyət kəsb edən ölkədir. Bütün bunlar Azərbaycanın və Polşanın iqtisadi əməkdaşlığının əsas istiqamətlərini və perspektivlərini, artan xətdə gedişini aydınlaşdırır. **"Azərbaycan - Polşa iqtisadi əlaqələrinin mövcud vəziyyəti, strukturu və dinamikası"** adlanan ikinci paraqrafda problemin perspektivlərinin ümumi aspektləri təhlil faktına çevrilir. İki ölkənin iqtisadi əlaqələrinin perspektivlərinin elmi-nəzəri aspektdə təhlilində ən mühüm məsələlərdən biri bu əlaqələrin təkmilləşdirilməsi və onun həlli istiqamətlərinin müəyyənləşməsidir. Məlum olduğu kimi, Polşa Respublikasının Azərbaycanın suverenliyini tanıdığı və ikitərəfli münasibətlərin qurulduğu vaxtdan qarşılıqlı əlaqələr həmişə inkişaf edən istiqamətdə getmişdir. Polşa Azərbaycanın müstəqilliyini ilk tanıyan (27 dekabr 1991-ci il) dövlətlərdəndir. Prezident, Baş nazir səviyyəsində müxtəlif illərdə olan görüşlər bir istiqamətdə ölkələrin iqtisadi inkişafının yaxşılaşmasına, qarşılıqlı bağlantıların yaranmasına hesablanmışdır.

Müzakirələrin mühüm bir hissəsini iqtisadi sahədə aparılan danışıqlar, böyük layihələrin, özəl şirkətlərin, dövlət maraqlarının həyata keçirilməsi təşkil etmişdir. Məsələn, 2009-cu il görüşündə Azərbaycan Respublikasının prezidenti ilə Polşa Respublikasının

prezidentinin "Məşvərət Komitəsinin Nizamnamə"sini imzalaması, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə Polşanın "Qrupa Lotos" Səhmdar Cəmiyyəti arasında niyyət protokolu, Azərbaycan Respublikası Təhlükəsizlik Şurası ilə Polşa Respublikası Milli Təhlükəsizlik Bürosu arasında 2009-2010-cu il üçün əməkdaşlıq cədvəli və s. hamısı qarşılıqlı bağlantılara, siyasi, iqtisadi, mədəni əlaqələrin gələcək perspektivinə yönəlmişdir.

İqtisadi münasibətlər kontekstində Azərbaycan ilk dəfə 2008-ci ildə müsbət saldoya nail olmuş və iki ölkə arasında mal dövriyyəsi 166,9 milyon ABŞ dollarına çatmışdır. Ümumiyyətlə, region olaraq tranzit dəhliz kimi və geoiqtisadi bağlantıların yaranması, zəngin iqtisadi göstəriciləri, sabit siyasi mühit yarada bilməsi və s. baxımından xüsusi olaraq iqtisadi əlaqələr üçün mühüm rola malikdir.

Diplomatik əlaqələrinin iyirmi beş illiyi müstəvisində aparılan təhlillərdə Polşa respublikasının Baş nazirinin çıxışında ikitərəfli münasibətlərin önəmliyi, biznes forumunun keçirilməsinin gərəkliliyi və bu forumların müəyyən vaxtlarda yenidən təkrarlanması kimi məsələlər xüsusi olaraq qabardılmışdır.

Azərbaycan və Polşa iqtisadi əlaqələrinin mövcud vəziyyəti, strukturu və dinamikası dövlət və prezident səviyyəsində olan görüşlərdə daha da genişlənir və beynəlxalq iqtisadi qanuna-uyğunluğun prinsip və müddəaları əsasında inkişaf etdirilir. Polşa – Azərbaycan iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyasının fəaliyyətinin bu sahədə çəkisi xüsusilə önəmlidir.

Polşa Respublikasının prezidentinin Azərbaycana sonuncu səfərində iqtisadi münasibətlərin daha da inkişaf etdirilməsinə hesablanmış müqavilələr imzalanmışdır. Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ilə Polşa Respublikasının bitki mühafizəsi və toxumçuluq üzrə Dövlət Müfəttişliyi arasındakı müqavilə, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Polşa Respublikasının Kənd Təsərrüfatı və Kəndin İnkişafı Nazirliyi arasında Anlaşma Memorandiumu və s. ciddi perspektivləri müəyyənləşdirir.

Azərbaycanın aqrar sahədə perspektivləri ciddi və uğurlu iqtisadi bağlantıların həyata keçirilməsinə şərait yaradır. Zəngin iqlim şəraiti digər alternativ sahələrin də mövcudluğunu düşünməyə əsas

verir. Bütün bunlar Azərbaycan və Polşa Respublikalarının iqtisadi əlaqələrinin mövcud vəziyyəti, strukturu və dinamikası haqqında dolğun təsəvvür yaradır. İkinci fəslin üçüncü paraqrafı **“Azərbaycan və Polşa Respublikaları arasında ticarət əlaqələrinin inkişafının müasir vəziyyəti”** adlanır. İki respublikanın iqtisadi münasibətlərinin perspektiv inkişaf probleminin aydınlaşdırılmasında mühüm istiqamətlərdən birini ticarət əlaqələrinin müasir vəziyyəti təşkil edir. Məlum olduğu kimi, Azərbycan tərəfdaş kimi dünyanın bütün ölkələri ilə balanslaşdırılmış əlaqələrin həyata keçirilməsinə üstünlük verir.

Mərkəzi Avropanın inkişaf etmiş dövlətlərindən olan Polşa ilə iqtisadi əlaqələrinin perspektivliyi ölkənin coğrafi şəraitdə olan çəkisi, bərpa olunan və olunmayan ehtiyatlarının zənginliyi, bazarının uğurluluq əmsalı ilə xüsusi əhəmiyyət daşıyır. Ölkənin ümumi quru ərazisi 30629 min hektar, meşə ilə örtülü torpaqları 9192 min hektardır. Meşə ilə örtülü torpaqların ölkə ərazisindəki payı 30%-i əhatə edir. Coğrafi məkan olaraq ticarət münasibətlərinin qurulması üçün bu əsaslı göstəricidir.

Azərbaycan Respublikasının həyata keçirdiyi ticarət əlaqələri mövcud resurslardan qarşılıqlı faydalanma, elmi-texniki sahədə əməkdaşlığın genişlənməsi kimi ciddi əsaslara bağlanır. M**etallurgiya, aqrar sənaye, meşə sənayesi (kombinat) və mebel istehsalı,** gəmi istehsalı, **maşınqayırma,** tekstil, avtomobil, təyyarə, alüminium, **tikinti materiallari və konstruksiya istehsalı, kimya sənayesi,** və s. sahələrdə apardığı ticarət əlaqələri ehtiyacların öncüllənməsini, zəruri tələbatların ödənilməsini bir prinsip kimi əsas edir.

2015-ci il üzrə Polşa ilə xarici ticarət əlaqələrinə diqqət yetirdikdə idxal (min ABŞ dolları ilə) 90732, ixrac 6509,0, saldo 84223,7 olmuşdur. Azərbaycanın idxalında 2015-ci ildə əsas tərəfdaşların xüsusi çəkisi baxımından 1%, yeri 19-u tutmuşdur[5]. Ümumiyyətlə, Azərbaycanın 2015-ci ildə ticarət dövriyyəsi 21945,8 milyon ABŞ dolları təşkil etmişdir. İdxal 9216,7, ixrac 12729, saldo 3512,4, 2016-cı ildə ticarət dövriyyəsi 21596,6 milyon (idxal 8489,1,

---

[5] Azərbaycanın statistik göstəriciləri /- Bakı: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, -2015, -814 s.

ixrac 13107,5, saldo 4618,4) ABŞ dolları olmuşdur. 2017-ci ildə ümumi xarici ticarət dövriyyəsi 24263,8 (idxal 8783,3, ixrac 15480,5, saldo 6697,2) ABŞ dolları təşkil etmişdir. 2018- ci ildə xarici ticarət dövriyyəsi 31782,7 (idxal 11465,9, ixrac 20316,8, saldo 8850,9) olmuşdur. 2019-cu ildə ticarət dövriyyəsi 33065,3 (idxal 13667,5, ixrac 19397,8, saldo5730, 3) ABŞ dolları olmuşdur. 2020-ci ildə xarici ticarət dövriyyəsi 24471,3 (idxal 10730,7, ixrac 13740,6, saldo 2739,7) milyon ABŞ dolları təşkil etmişdir. 2021-ci ildə Polşadan Azərbaycana ixrac məhsulların həcmi 109 milyon dollar, Azərbaycandan Polşaya ixrac məhsulların həcmi 7,83 milyon dollar təşkil etmişdir. 2021-ci ildə OEC World və Polşa Statistika Komitəsinin (Główny Urząd Statystyczny) iqtisadi göstəricilərində iqtisadiyyatın mürəkkəbliyi baxımından Polşa 1,01%, Azərbaycan - 0,52% olmuşdur. Göründüyü kimi, pandemiya (COVİD-19) bütün dünyada olduğu kimi, Azərbaycanın xarici ticarət əlaqələrinə də öz təsirini göstərmişdir. Polşadan Azərbaycana ixrac məsulları aşağıdakı pasta diaqramında verilmişdir.




**Pasta diaqramı 1. Polşadan Azərbaycana ixrac məhsulları (mln dollar)**

*Mənbə: OEC World və Polşa Statistika Komitəsi (Główny Urząd Statystyczny)*

Azərbaycanın torpaqlarını düşməndən azad etməsi, 44 günlük müharibə və azad olunan ərazilərdə aparılan quruculuq işləri yaşıl iqtisadiyyat baxımından ciddi perspektivlər vəd edir. Polşanın müxtəlif yönlü Grupa Lotos, PGNİG, PGE Polska Grupa Energetyczna, KGHM Polska Miedz, Tauron Polska, ArcelorMittal Polska, Lidi Polska, Enea SA şirkətləri Azərbaycanda yaşıl zona timsalında layihələrin həyata keçirilməsinə xüsusi maraq göstərirlər. 2021-ci ilin yanvar-mart aylarında Azərbaycan respiblikası dünyanın 153 ölkəsi ilə ticarət əlaqələri qurmuş, 89 ölkəyə məhsul ixrac etmiş, 144 ölkədən mal idxal olunmuşdur. ÜDM Azərbaycanda 43 milyard, adambaşına gəlir 4300 ABŞ dolları, Polşada 594 milyard, adambaşına gəlir 13650 ABŞ dolları olmuşdur. Azərbaycanın xarici ticarət dövriyyəsi 2020-ci ildə 24 milyard (ixrac 14 milyard, idxal 1o milyard), Polşanın xarici ticarət dövriyyəsi 45 milyard (ixrac 23, idxal 22 milyard) ABŞ dolları olmuşdur. Azərbaycanla Polşanın xarici ticarət əlaqələri 2020-ci ildə 114 (5 milyon Azərbaycan ixrac etmiş, 109 milyon Polşadan idxal etmişdir) milyon ABŞ dolları həcmində olmuşdur. Polşadan Azərbaycana gətirilən malların çeşidi və ümumi mənzərəsi əsaslı ticarət bağlantılarını ortaya qoyur.

**Dissertasiyanın "Azərbaycan və Polşa respublikaları arasında iqtisadi əlaqələrin inkişaf perspektivləri və onun təkmilləşdirilməsi istiqamətləri"** adlanan üçüncü fəslində problem üç paraqrafda ümumiləşdirilir. İlk olaraq **"Azərbaycan - Polşa qarşılıqlı iqtisadi münasibətlərinin inkişaf meyilləri"** paraqraf səviyyəsində təhlil faktına çevrilir. Azərbaycan və Polşa Respublikalarının iqtisadi əlaqələrinin sistemli elmi-nəzəri təhlilində mühüm istiqamətlərdən biri iqtisadi əlaqələrin perspektivlərinin və onun təkmilləşdirilməsi istiqamətinin müəyyənləşməsidir.

Son 5 ildə Polşa iqtisadiyyatının müxtəlif sahələr üzrə ümumi mənzərəsi fərqli templə davam etmişdir. COVİD-19 başlaması buna səbəb olmuşdur.

**Cədvəl 1. Polşa Respublikasında 2013-2020-ci illərdə iqtisadiyyatın və iqtisadi fəaliyyətin əsas göstəriciləri**

| İl | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|---|
| Kənd təsərrüfatı, ÜDM %-lə | | | | | | | | |
| Polşa | 3.1 | 2.9 | 2.4 | 2.5 | 2.9 | 2.3 | 2.3 | 2.5 |
| Sənaye, ÜDM %-lə | | | | | | | | |
| Polşa | 28.3 | 29.2 | 30.1 | 29.5 | 28.4 | 28.5 | 27.9 | 27.7 |
| Xidmətlər, ÜDM %-lə | | | | | | | | |
| Polşa | 57.3 | 56.6 | 56.2 | 56.3 | 56.6 | 56.7 | 57.6 | 57.8 |

**mənbə: statista.com**

Əlavə olaraq Polşa Real ÜDM üzrə 2024-cü il üçün gözləntilər (expectations) hesablanmışdır.




**Qrafik 1. Polşa üzrə 2017-2024-cü illərdə Real ÜDM artım tempi %-lə**

Ümumiyyətlə, m**etallurgiya, aqrar sənaye, meşə sənayesi (kombinat) və mebel istehsalı,** yüngül sənaye, ağır sənaye, gəmi

istehsalı, **maşınqayırma, tikinti materiallari və konstruksiya istehsalı, kimya sənayesi,** tekstil, avtomobil, təyyarə, maşın, sement, alüminium və s. baxımından Polşa geniş imkanlara malikdir. Azərbaycanda olan ayrı-ayrı illər üzrə idxal və ixrac məsələlərinə və Polşanın bu tərəfdaşlıq çəkisinə diqqət yetirdikdə əhəmiyyətli bir mənzərə yaranır. Məsələn, 2013-cü il üzrə idxal 46475,8, ixrac 3483,0 ABŞ dolları, saldo -36254,1 olmuşdur. 2013-cü ilin 2012-ci ilə nisbəti faizlə idxal 102,7,% ixrac 293,5%-dir. Azərbaycanın idxalında əsas tərəfdaş çəkisi 0,4, yeri 29-dur.

2014-cü il üzrə idxal 62348,9, ixrac 16329,8 ABŞ dolları, saldo -46019,1 olmuşdur. 2014-cü ilin 2013-cü ilə nisbəti faizlə idxal 134,2 %, ixrac 159,8%-dir[6].

Hər iki ölkənin ixrac siyasəti strateji tərəfdaşlıq prizmasında iqtisadi gücün artırılmasına, ixrac potensialının inkişaf etdirilməsinə hesablanmışdır. Təbii-iqtisadi potensial müstəvisində olanlar fəal surətdə təsərrüfat dövriyyəsinə istiqamətlənməni gərəkli edir.

Kənd təsərrüfatının inkişafı sahəsində də Polşa xüsusi imkanlılıqla seçilir. Regionun iqlim şəraiti, torpaqların münbitliliyi, kənd təsərrüfatına qoyulan investisiyaların xüsusi çəkisi dövlətin bu sahəyə diqqətinin göstəricisidir. Kartof, tütün, kətan, çovdar, arpa, buğda, yulaf əkinçilik sahəsində aparıcı yerləri tutur. Heyvandarlıq, balıqçılıq sahəsində də ölkə böyük gəlir əldə etməsi ilə seçilir. Ölkə əhalisinin 30%-ə yaxın hissəsi kənd təsərrüfatı sahəsində çalışır.

Azərbaycanın və Polşanın iqlim şəraiti kənd təsərrüfatının inkişaf etdirilməsi və dünya bazarına çeşidli məhsullarla çıxışı üçün müsbət təsəvvür formalaşdırır. Bütün bunlar bir bütöv olaraq Polşa ilə Azərbaycanın qarşılıqlı iqtisadi münasibətlərinin inkişaf meyillərinin perspektivini, gələcəyə hesablanan müsbət inkişafın nəticələrini, onların çoxşaxəliliyini aydınlaşdırır. İkinci yarımfəsil "**Azərbaycan - Polşa iqtisadi əlaqələrinin təkmilləşdirilməsi və onun həlli istiqamətləri"** adlanır. Tarixi XV əsrə gedib çıxan Azərbaycan və Polşa əlaqələri (Ağqoyunlu hökmdarı Uzun Həsənlə Polşa kralı

---

[6] Azərbaycanın statistik göstəriciləri /- Bakı: Səda, -2011; Azərbaycanın statistik göstəriciləri / -Bakı: Səda, -2012; Azərbaycanın statistik göstəriciləri / -Bakı: Səda, -2013; Azərbaycanın statistik göstəriciləri / -Bakı: Səda, -2014.

Yagello arasındakı əlaqələr) bütün mərhələlərdə müsbət bir tendensiyaya köklənmişdir. Dostluq və qarşılıqlı əməkdaşlıq üzərində həyata keçirilən bu siyasət artıq beynəlxalq təşkilatlarda uğurlu təsəvvürlər formalaşdırmışdır. Məlum olduğu kimi, Polşa Respublikası iqtisadi imkanlılıq dərəcəsinə görə Avropa Birliyinin altıncı ölkəsidir. Avropa İttifaqının Şərq Bloku üzvləri arasında ən böyüyü hesab olunan Polşa iqtisadi inkişaf tempinə görə rekord səviyyədədir. İqtisadiyyatda liberallaşma siyasətini həyata keçirən (1990) bu ölkənin Dünya Bankı tərəfindən yüksək gəlirliliyi xüsusi olaraq vurğulanır. Adam başına düşən ümumi daxili məhsul təxminən 6% artmışdır. Ümumi daxili məhsulun həcminə görə dünyada 20-ci sırada durur.

İqtisadiyyatında ən böyük hissəni xidmət, sənaye və kənd təsərrüfatı tutur və bunlar da öz göstəriciləri ilə yüksək səviyyəliyi ilə seçilir. Belə ki, xidmət sektoru 62%, sənaye 34,2%, kənd təsərrüfatı 3,5 % təşkil edən Polşa iqtisadi sahədə uğurlu islahatı ilə idxal və ixrac baxımından ciddi nailiyyətlərlə seçilir. Təkcə onu demək kifayətdir ki, 2015-ci ildə 198,2 milyard dollar mal satmışdır və bu da 2011-ci illə müqayisədə 5,4 %, 2014-cü illə müqyisədə 7,6% artım deməkdir. Polşa Mərkəzi Statistika İdarəsinin məlumatlarına görə iqtisadi artım 2010-cu ildə 3,9%, 2014-cü ildə 3,3%, 2015-ci ildə 3,6% olmuşdur. Avropa məkanında bu göstərici ən yaxşı nıticə nisbətində qiymətləndirilmişdir.

Azərbaycan və Polşa respublikalarının perspektiv inkişaf probleminin araşdırılmasında mühüm istiqamətlərdən biri iki ölkənin iqtisadi əlaqələrinin təkmilləşdirilməsi və onun həlli istiqamətləridir. Azərbaycan və Polşa mövcud olduğu regionun xüsusi çəkiyə malik ölkəsi olmaqla ciddi perspektivlər vəd edir. 2007-ci il maliyyə böhranından sonra fasiləsiz iqtisadi artımla Polşa daha çox maraq doğurur. "Azərbaycan Respublikası ilə Polşa Respublikası arasında Tərəfdaşlıq və İqtisadi Əməkdaşlığa dair Yol Xəritəsi haqqında Birgə Bəyannamə" və digər 5 sənəd böyük perspektivlərə yol açır. Ən əsas olanlardan biri iqtisadi sahədə əməkdaşlıqla bağlı idi ki, burada nəqliyyat, energetika, maşınqayırma, kənd təsərrüfatı və s. önəmli yer tuturdu.

Bakıda keçirilən 22-ci Beynəlxalq “Xəzər neft, qaz, neftayırma və neft kimyası” sərgisi və konfransında iştirak etmək məqsədi ilə Polşa hökümət nümayəndələrinin Azərbaycana gəlişi və apardığı müzakirələr (2-5 iyun 2015-ci il) qarşılıqlı maraqların, iqtisadi, siyasi, mədəni bağlantıların zəruriliyini və gələcəyə hesablanmasını aktlaşdırır. İqtisadi əlaqələrin təkmilləşdirilməsi problemini aşağıdakı istiqamətdə sistemləşdirmək olar:

a) enerji təhlükəsizliyinin həlli və təkmilləşdirilməsi müstəvisində;

b) Şərq-Qərb, Cənub-Şimal nəqliyyət dəhlizlərinin perspektivləri baxımından;

c) sənayenin müxtəlif sahələrində ixrac-idxal münasibətlərinin genişlənməsi kontekstində;

ç) kənd təsərrüfatının inkişaf etdirilməsi və birgə layihələrin həyata keçirilməsi;

d) ticarət münasibətlərinin təkmilləşdirilməsi və daha da inkişaf etdirilməsi cəhətdən;

e) hökumətlərarası müzakirələrin və vaxtaşırı biznes forumlarının təşkili;

ə) şirkətlərarası birgə fəaliyyətin gücləndirilməsi;

d) mədəni əlaqələrin daha da artırılması və s.

İki ölkənin iqtisadi münasibətlərinin inkişaf və təkmilləşdirilməsində daxili və xarici iqtisadi amillərin düzgünlüyünün nəzərə alınması mühüm olan məsələlərdəndir. Turizm iqtisadiyyatın gücləndirilməsi müstəvisində xarici amil olaraq özü ilə birgə digər sektorlara da gərəkli təsir göstərir. Məsələn, mehmanxana və istirahət kompleksləri, nəqliyyat, infrastruktur sahələrinin inkişafını zəruriləşdirir. Son dövrlərdə dövlətin bu sahəyə xüsusi diqqət yetirməsi və ciddi layihələr həyata keçirməsi böyük turist axınının yaranması ilə nəticələnmişdir.

Bütün bunlar Polşa ilə Azərbaycanın iqtisadi münasibətləri kontekstində aparılan təhlillərdir ki, daim təkmilləşmələri, yeni yanaşmaları və reallığın, dünya iqtisadi sferasında baş verən proses və yeniləşmələrin nəzərə alınmasını zəruri edir, proseslərin bu müstəvidə aparılmasını aktuallaşdırır. Sonuncu paraqrafda “**Azərbaycanın Polşa Respublikası ilə sahəvi iqtisadi əlaqələri və perspektiv inkişaf**

**istiqamətləri"** təhlil olunur. Azərbaycan və Polşa Respublikalarının iqtisadi əlaqələrinin perspektivlərində mühüm istiqamətlərdən biri sahəvi iqtisadi əlaqələrlə bağlıdır. Azərbaycan Cənubi Qafqaz dövlətləri arasısında iqtisadi potensialı ilə daha çox seçilən və perspektivlər vəd edən ölkədir. Onun zəngin karbohidrat yataqları, neft ehtiyatları, eləcə də kənd təsərrüfatının inkişafı üçün yararlı iqlim şəraiti ciddi iqtisadi layihələrin, investisiya qoyuluşlarının aparılmasını gərəkli edir.

Balassa indeksiylə hesablamaqla ölkənin dünya bazarında məhsul və ya sənaye üzrə müqayisəli üstünlüyə malik olub olmadığını görmək olar. Eger indeks 1-dən kiçikdirsə ölkə həmin sahə və ya sənaye üzrə müqayisəli üstünlüyə malikdir.

$$RCA_{iw}^{k} = \left(\frac{X_{iw}^{k}}{X_{iw}}\right) : \left(\frac{X_{ww}^{k}}{X_{ww}}\right) \quad (2.1.1)$$

Burada,

RCA - Açıqlanmış Müqayisəli Üstünlük

$X_{iw}^{k}$ – X ölkənin dünyaya ixrac etdiyi x məhsulun total həcmi

$X_{iw}$ - X ölkənin dünyaya ixrac etdiyi məhsulların total həcmi

$X_{ww}^{k}$ - Dünyanın ixrac etdiyi x məhsulun total həcmi

$X_{ww}$ - Dünyanın ixrac etdiyi məhsulların total həcmi

İndeksin hesablanmasında Polşanın kənd təsərrüfatı sahəsi götürülmüşdür.

**Cədvəl 2. Kənd təsərrüfatı üzrə toplam ixrac (EUR, 2021)**

| | |
|---|---|
| Polşa | 37.4 mlrd |
| Dünya | 104.7 mlrd |

*mənbə: müəllifin hesablaması*

**Cədvəl 3. Ümumi ixracın həcmi (EUR, 2021)**

| | |
|---|---|
| Polşa | 332.1 mlrd |
| Dünya | 28003.9 trln |

*Mənbə: müəllifin hesablaması*

Balassa indeksinə nəzər yetirsək:

$$RCA_{iw}^{k} = 30.11$$

İndeksin hesablanmasında Azərbaycanın kənd təsərrüfatı sahəsi götürülmüşdür.

**Cədvəl 4. Kənd təsərrüfatı üzrə toplam ixrac (EUR, 2021)**

| | |
|---|---|
| Azərbaycan | 13.8 mlrd |
| Dünya | 104.7 mlrd |

*mənbə: müəllifin hesablaması*

**Cədvəl 5. Ümumi ixracın həcmi (EUR, 2021)**

| | |
|---|---|
| Azərbaycan | 21.63 mlrd |
| Dünya | 28003.9 trln |

*mənbə: müəllifin hesablaması*

Balassa indeksinə nəzər yetirsək:

$$RCA_{iw}^{k} = 170.64$$

Nəticə olaraq Balassa indeksi üzrə hər iki ölkəni hesablamaqla indeks əmsalının 1-dən böyük gəlməsi hər iki ölkənin RCA – ya malik olması deməkdir. Əmsal üzrə nəticələri götürsək Azərbaycan RCA üzrə daha çox üstülünyə malikdir.

Azərbaycan Respublikası prezidentinin Polşaya rəsmi səfərlərində də digər məsələlərlə yanaşı, sahəvi iqtisadi əlaqələrin yaradılması və perspektiv inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi bir problem olaraq diqqət mərkəzində saxlanmışdır. Biznes forum əsasən bu məsələlər üzərində işlərin gedişinə yönəlmişdir. Polşa sənayesində olan müxtəliflik sahəvi iqtisadi əlaqələrin inkişaf etdirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanın zəngin flora və faunası, təbii ehtiyatları, iqlim şəraiti Polşa respublikası ilə sahəvi əlaqələrin, birgə layihələrin həyata keçirilməsi üçün daha çox diqqəti cəlb edir.

İki ölkənin sahəvi iqtisadi əlaqələrində müəyyən məhsullar üzrə ixtisaslaşma iqtisadi üstünlüklərin ortaya çıxarılmasına və bu sahədə uğurların təmin olunmasına şərait yaradır. Burada əlbəttə xalq təsərrüfatının daha səmərəli işinin təşkili müşahidə olunur və əlavə investisiyaların qoyuluşuna əsas verir. İstehsal vasitələri istehsalı və istehlak vasitələri istehsalının nisbətləri formalaşır. Məsələn, Azərbaycanın ayrı-ayrı zonalarında aparılan islahatlar, pambıqçılıq, üzümçülük, heyvandarlıq və yaxud da sənaye baxımından olan ixtisaslaşmalar buna nümunədir.

Sahə iqtisadiyyatının perspektivlərində kənd təsərrüfatı mühüm tərəfdir. Çünki Azərbaycanın iqlim şəraiti, torpaqlarının münbitliyi bu sahəyə xüsusi investisiyaların qoyulmasını və yüksək texnalogiyaların tətbiqi ilə müsbət məhsuldarlıq əldə etməyə şərait yaradır. Əkinçilik məhsullarının yetişdirilməsi baxımından regionun ümumi mənzərəsi əsaslı perspektivlər vəd edir. Son dövrlərdə pambıqçılıq və üzümçülük, baramaçılıq dövlət səviyyəsində xüsusi qayğı ilə əhatə olunmuşdur.

İnvestisiya siyasətinin uğurla həyata keçirilməsi, heç şübhəsiz, ölkə iqtisadiyyatının dirçəldilməsi və inkişafı üçün mühüm faktor-lardandır. Azərbaycan və Polşa respublikalarının sahə iqtisadiyyatının inkişaf etdirilməsinin ümumi mənzərəsi olanlar müstəvisində ciddi perspektivlər vəd edir. Burada xarici ticarət əlaqələrinin daha da artırılması, nəqliyyat daşımaları və xidmət ticarətnin digər sahələri, turizm, xarici investisiya qoyuluşu, iqtisadiyyatın müxtəlif sahələrində birgə layihələrin həyata keçirilməsi, kənd təsərrüfatının müxtəlif sahələri izrə əməkdaşlığın təmin olunması, rəqabət siyasətinin uğurla aparılması, elm, təhsil layihələri və s. Polşa ilə sahəvi bağlantılarda perspektiv imkanları, inkişaf istiqamətlərini müəyyənləşdirir. Bütün bunlar Azərbaycan və Polşa Respublikalarının sahəvi iqtisadi bağlantılar baxımından geniş imkanlarla və perspektiv inkişafla səciyyələnməsini düşünməyə, uğurlu iqtisadi siyasət strategiyasını həyata keçirməyə əsas verir. **“Nəticə”**də dissertasiya boyu gəlinən qənaətlər ümumiləşdirilir.

Azərbaycan və Polşa Respublikalarının iqtisadi əlaqələrinin perspektiv inkişaf istiqamətlərinin araşdırılması aşağıdakı elmi qənaətlərin ortaya çıxması ilə nəticələnmişdir.

1. Azərbaycan və Polşanın iqtisadi, mədəni, siyasi əlaqələrinin çağdaş mənzərəsi tarixi ənənələrdəki ikitərəfli bağlantıların müsbət məramından qaynağını götürür.

2. Beynəlxalq iqtisadi münasibətlər səviyyəsində iki ölkənin iqtisadi əlaqələri qloballaşan dünya timsalında əsaslı perspektivləri müəyyənləşdirir. Polşa Şərq Bloku üzvləri arasında Avropa İttifaqının ən böyük dövlətidir.

3. Cənubi Qafqazın geoiqtisadi məkan olaraq dünyanın marağında dayanması və artan enerji ehtiyacının ödənilməsində Azərbaycanın müstəsna imkanlara malik olması iqtisadi-ticari əlaqələrin perspektivləri üçün əsaslı təsəvvür formalaşdırır.

4. Polşa - Azərbaycani iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın fəaliyyəti, nəqliyyat, dəmir yolu, energetika, maşınqayırma, infrastruktur, kənd təsərrüfatı, turizm, əczaçılıq, tikinti, ərzaq sahəsində əməkdaşlığın, ticari əlaqələrinin genişləndirilməsi hədəflərin perspektivliyini faktlaşdırır.

5. Dövlət başçıları səviyyəsində vaxtaşırı keçirilən görüşlərin məram və məqsədində dayanan əsas məsələlərdən birisi ikitərəfli iqtisadi münasibətlərin tənzimlənməsinin müəyyənliyidir.

6. Polşa və Azərbaycan iqtisadiyyatına yüksək texnologiyaların tətbiqi, xidmətlər, avadanlıqlar, neft və qaz emalı prosesləri, dəmir yolu xətlərinin təkmilləşdirilməsi, informasiya texnologiyaları sahəsində əldə edilən nailiyyətlərdən faydalanma iqtisadi münasibətlərin çevrəsinin və çeşidlərinin müsbət məcrasına, ölkənin iqtisadi potensialının güclənməsinə əsas olur.

7. Bazar iqtisadiyyatı şəraitində iki ölkənin iqtisadi əlaqələrinin konseptual əsaslarının araşdırlıb işlənməsi, fərqlilik və oxşarlıq, uğurluluq tərəflərinin müəyyənləşdirilməsi əsaslı dinamikanı faktlaşdırır.

8. İqtisadi münasibətlərin inkişaf meyllərinin aydınlaşmasında hər iki ölkənin şirkətlərinin maraq dairəsinin müəyyənləşməsi müstəvisində işə cəlb olunmasının mühüm rolu vardır. Əməkdaşlığın qeyri-neft sahəsinə yönləndirilməsi, maşınqayırma, yüngül və yeyinti sənayesi, neftmaşınqayırması, neft-kimya, kimya, kənd təsərrüfatı və s. sahələr üzrə genişləndirilməsi perspektivləri müəyyənəlşdirir.

9. Araşdırmalar göstərir ki, istehsal, xidmət və bazar infrastrukturlasrının modernləşdirilməsi, yeni texnologiyaların ölkə

iqtisadiyyatına tətbiqi əhalinin həyat səviyyəsinin yüksəldilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

10. Bütün bunlar son olaraq onu deməyə əsas verir ki, Azərbaycan və Polşa respublikalarının iqtisadi əlaqələri siyasi, mədəni, tarixi bağlantıların nümunəsi kimi zərurətdən yaranmışdır və hər iki ölkə üçün əlavə dividentlər gətirməklə əsaslı perspektivlər vəd edir.

**Dissertasiyanın əsas məzmunu aşağıdakı məqalə və tezislərdə öz əksini tapmışdır.**


1. Sustainable development issues in Poland and Azerbaijan, their strategic aspects. Audit. Bakı Biznes Universiteti, 2016, № 4, s. 81-84 (102)

2. Changes in global world economy. İqtisadiyyatın davamlı inkişafı: problemlər, perspektivlər. Beynəlxalq elmi konfrans. Sumqayıt, Sumqayıt Dövlət Universiteti. 2016, 27-28 aprel, s. 155-157 (405)

3. Formation and Principles of WTO. International scientific conference about "World Economy and Tourism development trends in Azerbaijan". Baku, Baku Business University, 2016, 05-06 May, s. 700

4. Azərbaycan və Polşa iqtisadi əməkdaşlığının əsas istiqamətləri. İqtisadi və siyasi elmlər jurnalı. Bakı, 2017, № 4 (dekabr). s. 25-33 (220)

5. The charakteristic features of the economic relations Republic of Azerbaijan with the Republic of Poland. Audit. Bakı Biznes Universiteti, 2017, № 2, s. 145-150 (161)

6. Azerbaijan - Poland economic relations and their further perspektives. İqtisadiyyatın rəqabət qabiliyyətliliyinin yüksəldilməsi yolları. Respublika elmi Konfransının materiallar. Sumqayıt, Sumqayıt Dövlət Universiteti. 2017, 17-18 oktyabr, s. 283-285 (290)

7. The importance of economic faktors in the international economic relations. Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi Xəbərləri. Bakı, ADİU, 2017, iyul- sentyabr, 5 c., s. 349-356 (415)

8. Bılaterial and multılaterial cooperation between the EU and Azerbaijan. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr olunmuş "Səmərəli islahatların uğurlu nəticələri: reallıqlar və perspektivlər" mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları. Bakı, Bakı Biznes Universiteti, 2017, 4-5 may, s. 443-446 (796)

9. Azərbaycan və Polşa qarşılıqlı iqtisadi münasibətlərinin inkişaf meyilləri. Bakı, Qərbi Kaspi Universiteti. Elmi Xəbərlər. İctimai və texniki elmlər seriyası. 2018, № 1, s. 42- 49 (172)

10. İnternational economic relations: geo-economic factors (On economic between Azerbaijan and Poland). AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası. Bakı, 2018, № 1 (yanvar-fevral), s.118-124 (138)

11. Azərbaycan və Polşa Respublikalarının iqtisadi münasibətlərinin inkişaf xüsusiyyətləri. İqtisadi təhlükəsizlik: mövcud vəziyyət və perspektivlər. Beynəlxalq elmi konfransın materialları. Sumqayıt, Sumqayıt Dövlət Universiteti, 2018, 2-3 may), s.371-373 (493)

12. Development trends of economic relations between Azerbaijan and Poland. Odlar Yurdu Universiteti. Elmi və pedaqoji xəbərləri. Bakı, 2018, № 48, s. 119-123 (210)

13. Effect of globalization on economic relations between Azerbaijan and Poland. AMEA İqtisadiyyat İnstitutu, "Elmi əsərlər" toplusu. Bakı, 2018, № 1, s.146-151 (308)

14. Azərbaycan, Türkiyə və Polşa: şaxələnən yeraltı resurslar. Gəncliyin yeni baxış bucağından Türkiyə Respublika elmi-praktik konfransının materialları. (19 aprel 2018). Bakı Avrasiya Universiteti, 2018, s. 10-18 (176)

15. Azərbaycan və Polşa Respublikaları arasında ticarət əlaqələri və onun ümumi vəziyyəti. Bakı, Azərbaycan Ali Texniki məktəblərinin xəbərləri, 2018, № 5, c. 20, s. 99-104 (104)

16. Azərbaycanın Polşa Respublikası ilə sahəvi iqtisadi əlaqələri və onun perspektivləri. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümünə həsr edilmiş "Azadlıq və istiqlaliyyət hər bir xalqın milli sərvətidir" mövzusunda respublika elmi konfransının materialları. Bakı, Qərbi Kaspi Universiteti, 3may 2018-ci il. 2018, s296-305 (360).

17. Azərbaycan və Polşa respublikalarının iqtisadi münasibətləri: çağdaş vəziyyət və perspektivlər. Azərbaycan Texniki Universiteti. Elmi əsərlər. Bakı, 2018, № 3, s. 246-250 (250)

18. Development Trends Of Economic Relations Amonq Azerbaijan, Rusia And Poland. Uluslararası Türk – Rus dünyası akademik araşdırmalar konqresi (14-16 aralıq 2018, Ankara, 2019, s. 299-308

19. Development Trends Of Economic Relations Amonq Azerbaijan, Rusia And Poland. Siyasi, Sosial ve Kültürel Yönleriyle Türkiye ve Rusya. Türkiyə, Ankara, Berikan yayın evi, 2019, s. 73-81.

20. Azərbaycan və Polşa respublikaları: qarşılıqlı iqtisadi əlaqələri. Azərbaycan Respublikası Təhsil Nazirliyi. Doktorların və gənc tədqiqatçıların XXII Respublika elmi konfransının materialları. I c., Azərbaycan Dövlət Pedaqoji Universiteti, (22-23 noyabr, 2018). ADPU, Bakı, s. 260-261

21. Role of international economy and Geo-economic factors in economic relations between Poland and Azerbaijan. The Multidimensional Aspects of Asian Politics, Torun, Adam Marszalek, Poland. 2019, s. p. 50-61

22. Application of fuzzy logic in economy. In the context of production areas. Scientific and Practical Conference. Social and Economic Aspects of Education. RS Global Sp. Z.O.O. Warsaw, Poland. 2019, s.11-16

23. The role of economic relations with Poland in the integration of Azerbaijan into the West. Web of Scholar. Multidisciplinary scientific edition, RS Global Sp. Z.O.O. Warsaw, Poland, 2019, s. 3-7

24. Azerbaijan and Poland cultural diversity. Business guider of Polish citizen in Azerbaijan. World Science. Multidisciplinary Scientific Edition, RS Global Sp. Z.O.O. Warsaw, Polan, 2019, s. 43-48

25. Functional Characteristics of Geo-Economics (Case: Azerbaijan and Poland Economic Relations). Scientific and Practical Conference. International Trends in Science and Technology, RS Global Sp. Z.O.O., Vol,1, Warsaw, Poland, 2019, s. 39-43

26. Historical and Dynamic Review of Polish and Azerbaijani Relations (From Cultural Relations to Economic Relations). International Journal of Innovative Technologies in Economy. Scientific edition. RS Global Sp. Z.O.O. Warsaw, Poland, 2019, s. 16-23.

27. Globalization, International Economic Relations, and Geo-economic Factors (Based on Economic Relations between Azerbaijan and Poland). Understanding Asia: Political, Economic, and Socio-Cultural Dimensions. Adam Marszałek, Toruń, Poland, 2019, s. 32-44

28. Consumption and Interpretational Principles of International Economic Relations. Międzynarodowe czasopismo naukowe, Colloquium journal, Warszawa, Polska, 2020, N.7 (59), część 5, s. 13-17

29. Modern Development Trends of the Foreign Trade in the Context of Poland and Azerbaijan. International Journal of Innovative Technologies in Economy. Scientific edition. RS Global Sp. Z.O.O. Warsaw, Poland, 2020, s. 17-22

30. Essential Characteristics of Main Export Industries of Azerbaijan. VIII MIĘDZYNARODOWY VIII MIĘDZYNARODOWY KONGRES AZJATYCKIT, Granice polityczności: Realia, Strategie, Perspektywy, Torun, Poland, 22-24 września. 2021, (september).

Dissertasiyanın müdafiəsi “27” oktyabr 2023-cü il tarixdə saat 14:00-da Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində İqtisadi Araşdırmalar Elmi Tədqiqat İnstitutunda fəaliyyət göstərən FD 1.11 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan:  AZ 1001, Bakı şəhəri, İstiqlaliyyət küç., 6

Dissertasiya ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Dövlət İqtisad Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat “26” sentyabr 2023-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 22.09.2023.
Kağızın formatı: 60x84 1/16.
Həcmi 1 ç.v. (41633 işarə)
Tiraj 100.

“AA – Poliqraf” istehsalat-kommersiya birliyində
hazır diopozitivlərdən istifadə olunmaqla çap edilmişdir.
*Əlaqə üçün: capevi@internet.ru – (055) 201-28-09*